# Bu ilin turizm hədəfləri

## Ekspertlər lou-kost uçuşların açılmasını müsbət qiymətləndirir, ölkəmizin turizm potensialının xaricdə daha geniş tanıdılmasını isə vacib hesab edirlər

**Hazırda bir sıra ölkələrin əsas inkişaf nöqtəsi və gəlir mənbəyi turizm sahəsi ilə bağlıdır. Turizm ölkənin inkişafı üçün böyük potensiala sahibdir. Belə ki, bir çox inkişaf etmiş ölkələr müxtəlif üsullarla turist cəlb etməyə və buradan gələn gəlirləri genişləndirməyə çalışır. Bunun üçün bir sıra tədbirlər həyata keçirilir. Azərbaycanda da qeyri-neft sektorunda ən inkişaf etmiş sahələrdən biri turizmdir. Son dönəmlər ölkəmiz bu sahədə ciddi irəliləyişlər əldə edib. Bu baxımından hər il gələn turistlərin sayında artım müşahidə edilir.**



Dövlət Turizm Agentliyindən verilən məlumata görə, yola saldığımız 2019-cu ilin yanvar-dekabr aylarında Azərbaycana səfər edən xarici vətəndaşların sayı 3.17 milyon nəfər təşkil edib ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə 11.4% artım deməkdir. Artımın əsas istiqamətlərini Rusiya, Gürcüstan, İran, Türkiyə, eyni zamanda Asiya və Avropa ölkələri təşkil edir. Avropa ölkələrindən Azərbaycana gələnlərin sayı ötən ilin yanvar-dekabr dövründə 224 min nəfər təşkil edib ki, bu da 2018-ci ilin yanvar-dekabr dövrünə nisbətdə 14.7% artım hesab olunur. Bu regiondan daha çox ziyarətçi Böyük Britaniya (36 min nəfər və ya 25.3% artım), Almaniya (20 min nəfər və ya 19.4% artım), İtaliya (12 min nəfər və ya 10.8% artım) və Fransadan (9 min nəfər və ya 15.2% artım) təşkil edib. Cənubi Asiya ölkələri arasında 65 min nəfərlə Hindistandan və 46 min nəfərlə isə Pakistandan müvafiq olaraq 66.8% və 12.9% artım qeydə alınıb. Mərkəzi Asiya ölkələrindən gələn səyahətçilər arasında Türkmənistandan gələn qonaqların sayı 85% artıb. Bu regiondan Qazaxıstandan gələnlərin sayı da 26.1% artaraq 47 min nəfərə, Özbəkistandan gələnləri sayı isə 28.3% artaraq 23 min nəfərə çatıb.

Azərbaycana səfər edən İsrail vətəndaşları arasında da 17% artım müşahidə edilib.

Qeyd etmək lazımdır ki, Səudiyyə Ərəbistanı vətəndaşları Yaxın Şərq ölkələrindən gələn səyahətçilər arasında üstünlük təşkil edərək 46.7% artım göstərib. Azərbaycanın turizm nümayəndəliyinin fəaliyyət göstərdiyi Çindən 62.4% artım müşahidə olunub.

Maraqlıdır, qədəm qoyduğumuz 2020-ci ildə turizm sahəsindən gözləntilər və qarşıya qoyulan hədəflər nələrdir?

**"Skal International Baku"nun (Azərbaycan Turizm Peşəkarları Assosiasiyası) sədri Ceyhun Aşurovun** sözlərinə görə, turist sayını artırmaq üçün ölkəmizi turistlərə daha əlçatan etməliyik: "Hazırda ötən ilin statistik göstəriciləri var. Deməli, əvvəlki illə müqayisədə 2019-cu ildə gələn turistlərin sayında 11% artım var və ilk dəfə olaraq ölkəmizdə gələn turistlərin sayı 3 milyonu keçib. Bu statistika əvvəl olmayıb, bizim üçün yeni rəqəmdir. Artım xüsusilə də Avropa, Yaxın Şərq, Cənub Şərqi Asiya ölkələri vətəndaşlarında müşahidə edilib. 2020-ci illə bağlı isə onu demək olar ki, əlimizdə hədəfləri müəyyən edən, turizm sənayesinin inkişafını təmin edən Strateji Yol Xəritəsi var. 2020-2025-ci illərdə, hətta ondan sonrakı dövrdə belə turizm sahəsində qarşıya qoyulan hədəflər açıq şəkildə göstərilib. Gözləntimiz isə cari ildə gəlmə turizm potensialımızın daha da artması və göstərilən rəqəmlərin yenilənməsidir. Düşünürəm ki, bu sayı artırmaq üçün ölkəmizi turistlərə daha əlçatan etməliyik. Belə ki, son dönəmlər ölkəmizə bəzi lou-kost uçuşların açılması və bununla bağlı subsidiyaların üzərində işlərin aparılması bizə gələnlərin sayının artacağı ümidini verir. Bu çox həlledici məsələ idi, çünki ölkəmizdə turizm obyektlərinin qiymətinin hansı səviyyədə olmasından öncə ölkəmizə turisti gətirən nəqliyyatın ucuz olması vacibdir. Bu mənada lou-kosterlərin məsələyə cəlb olunması çox sevindiricidir və ola bilsin ki, 2020-ci ildə ciddi sıçrayış oldu. Rəqəmlərdə müşahidə ediləcək artım iqtisadiyyatın digər sahələrinin də inkişafına təsir göstərəcək. Bundan başqa, hədəf ölkələrdə keçirilən sərgilərdə, tədbirlərdə iştirak etmək, daim təbliğat, təşviqat işlərinin aparılması daha çox turistlərin cəlb edilməsinə şərait yaradacaq. Ona görə də bütün bunlara kadr potensialı baxımından da hazır olmalıyıq".

**Turizm üzrə ekspert Əhməd Qurbanov** 2019-cu ilin Azərbaycan turizmi üçün yaddaqalan il olduğunu qeyd etdi: "Bunu həm ölkəmizə 3 milyondan çox turistin gəlməsi, həm də il ərzində müxtəlif festivalların keçirilməsi ilə əlaqələndirmək mümkündür. Gədəbəydə keçirilən "Yaylaq", Şamaxıda "Şərab", Xınalıqda "Dağların başı" festivallarını misal çəkmək olar. Bütün bunlar daxili turizm bazarının canlanmasına səbəb oldu. 2020-ci ildə də qarşıya qoyulan əsas vəzifə daha çox turistin cəlb edilməsidir. Buna görə də müxtəlif turizm bazarları ilə əməkdaşlıq edilir. Düşünürəm ki, AZAL-ın səmanı bütün aviaşirkətlər üçün açması həm gəlmə, həm də getmə turizmin inkişafına ciddi təsir göstərəcək. 2020-ci ildə qarşıya qoyulan hədəflərdən biri də ölkənin turizm potensialını xaricdə tanıtmaqdır. Bunun üçün yerli turizm qurumlarımız xarici sərgilərdə fəal iştirak etməlidir".

**"Luna Travel" turizm şirkətinin direktoru Rəhman Quliyev** ölkəmizdə turizmin hər il öz potensialını genişləndirdiyini və bu il də turizm sahəsindən gözləntilərin yüksək olduğunu bildirdi: "Ölkəmizdə Dövlət Turizm Agentliyinin dəstəyi ilə yeni model turizm informasiya mərkəzlərinin sayı artırılacaq. Həmin mərkəzlər birbaşa turizmin inkişafına xidmət edəcək. Turistlər bu mərkəzlərə yaxınlaşaraq fikirlərini, təkliflərini, iradlarını, suallarını ünvanlaya bilərlər. Bunu bir növ turizm sahəsində qaynat xətt kimi də qiymətləndirmək olar. Ümumiyyətlə, gələn turist sayını artırmaq üçün yaxşı reklam işi görməli, potensialımızı tanıtmalıyıq. Bunun üçün isə sərgilərdə, xüsusilə də xaricdə təşkil edilən tədbirlərdə daha yüksək səviyyədə iştirak etməliyik. Həmçinin qonşu ölkələrin də təcrübəsindən yararlanmaqla ölkəmizin turizm sahəsindəki inkişafını genişləndirmək olar".

**Günel Azadə**